

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 213 (24.350)

*17 noyabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Şərurda “Yaşıl bazar” ticarət kompleksi istifadəyə verilib





Noyabrın 16-da Şərur şəhərində yeni “Yaşıl bazar” ticarət kompleksi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli kompleksdə yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, 8384 kvadratmetr ərazini əhatə edən kompleksə 132 mağaza, 18 rəfdən ibarət meyvə-tərəvəz satış məntəqəsi, kafe, eləcə də 6 texniki otaq daxildir. Bazarda həmçinin ət, balıq, quşçuluq və süd məhsullarının satışı üçün tam gigiyenik qaydalara cavab verən yerlər ayrılıb.

Diqqətə çatdırılıb ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın əsas hədəfləri sırasında məşğulluq imkanlarının artırılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi kimi vacib məsələlər dayanır. Yüzlərlə sakinin işlə təmin olunmasına hesablanmış yeni ticarət kompleksinin tikilib istifadəyə verilməsi Şərur rayonunda məşğulluq probleminin həllinə mühüm töhfədir. Burada 400 nəfərin işlə təmin olunması nəzərdə tutulur. “Yaşıl bazar”da əvvəlki illərdə mülkiyyət hüququ pozulmuş 32 rayon sakininə də ödənişsiz satış yerləri ayrılacaq.




Səlahiyyətli nümayəndə Axura kəndindən olan ailə təsərrüfatçısı Yusif Qafarovun mağazasında olub, satışa çıxarılan təbii məhsullarla maraqlanıb. Məlumat verilib ki, mağazada qurudulmuş və konservləşdirilmiş təbii məhsullar, sirkələr, turşu, mürəbbə və kompotlar, müxtəlif meyvələrdən hazırlanmış lavaşa və halvalar, eləcə də rayonun şəfalı dərman bitkiləri satışa çıxarılıb.

Səlahiyyətli nümayəndə söhbət zamanı bildirib ki, Şərur ərazisində 100 meqavat gücündə Günəş Elektrik Stansiyası istifadəyə veriləcək. Bu, rayonda fəaliyyət göstərən istixanaların da daha səmərəli fəaliyyətini təmin edəcək.

Fuad Nəcəfli satışa çıxarılan təbii məhsulların qablaşdırılması və “Orqanik Naxçıvan” brendi adı altında geniş tanıdılmasının vacibliyini vurğulayaraq bazarda fəaliyyətə başlayacaq hər bir sahibkara uğurlar arzulayıb.

Bazar kompleksinin ətraf əraziləri də abadlaşdırılıb, geniş avtomobil dayanacağı istifadəyə verilib.

**“Şərq qapısı”**

## Şərur şəhərində yeni yaşayış kompleksləri salınır





“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda əhalinin təhlükəsiz və rahat yaşayışının təmin olunması, yaşayış sahələrinə tələbatın ödənilməsi və mənzil fondunun inkişaf etdirilməsi mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bu məqsədlə dövlət-özəl tərəfdaşlığı çərçivəsində yerli və xarici investorlar cəlb olunmaqla əhalinin güzəştli şərtlərlə mənzilə əlçatanlığı təmin ediləcəkdir. Şərur şəhərində yeni yaşayış komplekslərinin inşası da bu məqsədə xidmət edir.

Noyabrın 16-da səlahiyyətli nümayəndə Fuad Nəcəfli Şərur şəhərində tikiləcək və hazırda inşası davam etdirilən yeni yaşayış komplekslərinin layihələri və inşaat işləri ilə maraqlanıb.

Məlumat verilib ki, “NN Residence” tikinti şirkəti tərəfindən şəhərin Səməd Vurğun və Nizami küçələrində geniş əraziləri əhatə edən yeni yaşayış kompleksləri inşa olunacaq. Hazırda hər iki istiqamətdə layihələndirmə işləri görülür. Layihəyə əsasən Səməd Vurğun küçəsində 16 mənzildən ibarət 3, Nizami küçəsində isə 44 mənzilli 5 yaşayış binası plana düşüb. Mövcud binalar və ətrafındakı yardımçı tikililər sökülməklə yerində bütün kommunal tələblərə cavab verən və rayon mərkəzinin ümumi görünüşünə müasir görkəm bəxş edəcək binalar inşa olunacaq.



Fuad Nəcəfli mənzilləri plana düşən sakinlərlə görüşüb, problemləri ilə maraqlanıb, növbəti illərdə yeni və müasir mənzillərlə təmin olunacaqlarını bildirib. Şəhər sakini Fatma Mehdiyeva göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

Səlahiyyətli nümayəndə Heydər Əliyev prospektində inşası davam etdirilən yaşayış kompleksi ilə də tanış olub. Məlumat verilib ki, ərazidə köhnə ikimərtəbəli binaların yerində salınan kompleksin ərazisi 20 min 80 kvadratmetrdir. Burada 6 mərtəbəli 6 yaşayış binası və 120 yerlik uşaq bağçası inşa olunur. Binalarda birotaqlı, ikiotaqlı, üçotaqlı və dördotaqlı olmaqla, ümumilikdə, 240 mənzil istifadəyə veriləcək. Binaların birinci mərtəbəsi, əsasən, xidmət sahələri üçün nəzərdə tutulur. Hazırda ərazidə 2 yaşayış binasının inşası sürətlə və keyfiyyətlə davam etdirilir. Kompleksin ərazisində geniş abadlıq işləri də görüləcək.

**“Şərq qapısı”**

# Şərurda şəhidlər memorial-abidə kompleksi inşa olunacaq






Həmin gün Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə Şərurda tikintisi nəzərdə tutulan şəhidlər memorial-abidə kompleksinin layihəsi təqdim olunub.

Məlumat verilib ki, 1135 kvadratmetr ərazini əhatə edəcək kompleks üçün şəhər mərkəzində uyğun yer müəyyənləşdirilərək, qısa zamanda inşasına başlanılacaq. Kompleksin mərkəzində səkkizguşəli ulduz formasında abidə ucaldılacaq və ətrafında qövsvarı memorial lövhələr qurulacaq. Həmin lövhələrdə torpaqlarımızın azadlığı uğrunda şücaət göstərmiş qəhrəman Şərur şəhidlərinin fotoları və onlar haqqında məlumatlar öz əksini tapacaq. Kompleksin ərazisi abadlaşdırılmaqla geniş yaşıllıqlar salınacaq.

**“Şərq qapısı”**

*Tarixi Azərbaycan torpaqları*

# “Kitabi-Dədə Qorqud” boylarında Qərbi Azərbaycan



*“İrəvan – qədim Azərbaycan şəhəri”. Rəssamı Cavid İsmayılov*

*Ermənilərin yaşadığı indiki Ermənistan ən qədim dövrlərdən ulu oğuz-türk yurdunun bir bölgəsidir. Azərbaycanın bu bölgəsində də soydaşlarımız qədim mədəniyyət, zəngin ozan-aşıq sənəti, o sıradan qəhrəmanlıq və məhəbbət dastanları yaratmışlar. Bunlar da Qərbi Azərbaycanın oğuz-türk torpaqları olduğunu göstərən tarixi-coğrafi, ədəbi-mədəni qaynaqlardan biridir. Xalqımızın qəhrəmanlıq eposu “Kitabi-Dədə Qorqud” isə daha mötəbər bir mənbədir.*

“Kitabi-Dədə Qorqud” boylarında əks olunmuş bir çox hadisələr Qərbi Azərbaycanın Göyçə, Qarabağ, Dərələyəz, İrəvan çuxuru, Zəngəzur və bunlara yaxın olan ərazilərdə baş vermişdir. Qara dənizdən Qafqaz dağları və Xəzər dənizinə, Dəmir qapı Dərbənddən Trabzona, cənubda Suriya sərhədlərinə, şərqdə Mil-Muğan ərazisinə qədər böyük bir coğrafiya həm də dastanın coğrafi məkanıdır. “Kitabi-Dədə Qorqud”un əsas araşdırıcılarından biri akademik V. Bartold vaxtilə Qorqudun adı ilə bağlı bu epik silsilənin Qafqaz mühiti və Azərbaycan türkləri ilə bağlı olduğu fikrini söyləmişdir. Dastanın “Qanlı qoca oğlu Qanturalı boyu”nda oğuzların Ağqoyunlu Boyundan olan Qanturalı Trabzonlu qızı Selcan xatunla ailə qurur. Ağqoyunluların sonralar mərkəzi Diyarbəkir olan müstəqil Oğuz dövlətini idarə edən Bayandurlar sülaləsi idi. Qərbi Azərbaycanda onlarla kənd və yer-yurd adları bu sülalə ilə və “Kitabi-Dədə Qorqud” boylarındakı adlarla bağlıdır. Bunlar açıq-aydın şəkildə Qərbi Azərbaycanın oğuz-türk yurdu olduğunu sübut edir. Boylardan da göründüyü kimi, oğuzların Azərbaycanda qışlaq yerləri Mil-Muğan düzü, yaylaq yerləri isə daha çox Qarabağ, Zəngəzur və Göyçə ətrafı ərazilər idi. Bu yaylaqlardan biri də eposda adıçəkilən Şirokuz, indiki Şirak yaylasıdır.

Professor Süleyman Məmmədov yazır: “Tədqiqatlardan məlumdur ki, hələ V əsrdə Muğanda sakin olmuş hunlar ərəblərin “balasaqun” adlandırdığı Ağ-hun (Böyük hun) şəhərini salmışlar. Beləliklə, “Kitab-Dədə Qorqud” oğuzları ilə XI əsr oğuzlarının yaxınlığını göstərən belə mövcud dəlillər, onların eyni coğrafi koordinatda fəaliyyət göstərdiyi barədə fikir söyləməyə imkan verir. Çünki “Kitabi-Dədə Qorqud” boylarında XI əsrə qədərki Şimali və Qərbi Azərbaycan mühitinin inikası vardır”.

Qərbi Azərbaycanda “Kitabi-Dədə Qorqud” boylarında Oğuz yurdu kimi adıçəkilən yerlərdən biri Göyçə mahalıdır. 1747-1828-ci illərdə İrəvan xanlığında mahal olmuş Göyçə cənubda Ağlağan təpəsi, Çənlibel dağları, Səlimgədiyi, şimalda Murğuz, Şahdağ silsiləsi ilə əhatə olunub.

*Dastandakı Oğuz eli Oğuz dövləti deməkdir. Ölkədəki siyasi idarəçilik Bayandur xana məxsusdur. Oğuzlardakı iki hakimiyyət qanununa görə, ölkəni, əsasən, xaqanın müavini Qazan xan idarə etmişdir. Oğuz eli İç Oğuzla Dış Oğuzun birliyindən ibarətdir. İç Oğuz siyasi mərkəz olmaqla Kürlə Araz çaylarının arasını və ətrafını tutan Aran, Mil-Muğan, Qarabağ torpaqlarını, Dış Oğuz Azərbaycanın qalan tarixi bölgələrini, o sıradan Dərbənd, Göyçə, Vedibasar, Dərələyəz, Diyarbəkir, Bayburd, Naxçıvan və sair əhatə etmişdir.*

Görkəmli qorqudşünas alim M. Təhmasib yazırdı: “Kitabi-Dədə Qorqud” boylarında oğuzların Orta Asiya dövrləri ilə dumanlı bir şəkildə səsləşmələr olsa da, dastan tam, bitkin, bədii əsər olaraq Azərbaycanda yaranmışdır. Təbii ki, bu qəhrəmanlıq eposu Qafqaz və Ön Asiyada yaşayan türklərin qədim etnik mədəniyyəti və tarixinin öyrənilməsində əvəzsiz bir mənbədir. Ona görə bu ədəbi abidəyə tez-tez müraciət olunmuş, dəyərli fikirlər söylənilmişdir. Tarixçi-alim Y.Mahmudov “Kitabi-Dədə Qorqud” boyları ilə bağlı yazır ki, oğuzçuluğun real tarixi bundan ibarətdir ki, Azərbaycan əski dövrlərdən ümumtürk məkanının tərkib hissəsi olub, böyük Türk dünyasının şimalını cənubu ilə, şərqini qərbi ilə birləşdirən körpü rolunu oynayıb.

“Kitabi-Dədə Qorqud” dastanının əsas coğrafi arealı Qafqaz və Ön Asiya ərazisidir. Sovet rejiminin 1960-cı illərdə yumşaldığı dövrdən başlayaraq professor M. Təhmasib eposla bağlı bir çox məsələlərin düzgün elmi şərhini vermişdir. Bu şərhlərdən birində o “Şimali Qafqaz dastançıları miladdan əvvəlki XIII-VII əsrlərdə oğuzları yaxşı tanıyırmışlar” qənaətinə gəlməklə Qafqazda oğuzçuluğun çox qədim tarixi olduğunu söyləmişdir. Görkəmli alim bununla Qafqazın qədim oğuz-türk yurdu olduğunu bir daha göstərmişdir. Bu faktların davamı və təsdiqi olaraq böyük dilçi alim Ə.Dəmirçizadə yazırdı ki, bizim eradan sonrakı əsrlərdə Orta Asiyadan gələn Oğuz tayfaları Azərbaycanda eramızdan əvvəlki minilliklərdə yaşamış yerli oğuzların nəsilləri ilə rastlaşmış və onlarla qaynayıb-qarışmışlar. Professor Ə.Dəmirçizadə də bu fikrilə Qafqazın, o sıradan Azərbaycanın eramızdan əvvəlki minilliklərdən oğuz-türk yurdu olduğunu təsdiq etmişdir.

Qədim türklərin aramsız oturaq məkanı olan gözəl iqlimi, səfalı yaylaqları və qışlaqları olan Qafqaz regionunda ümumtürk mədəniyyəti daha erkən formalaşmış, Azərbaycan türklərinin bir xalq kimi təşəkkülü də bu regionda baş vermişdir. Nəticədə, Zaqafqaziyada, o sıradan Azərbaycanda (şimallı-cənublu) və Şərqi Anadoluda böyük türk toplumlarının işlətdiyi ümumtürk danışıq dili formalaşmış, “Kitabi-Dədə Qorqud” boylarının vahid dastan kimi təşəkkülü başa çatmışdır.

Elmi ədəbiyyatlarda oğuzların qədim Azərbaycanın İrəvan çuxuru, Göyçə, Dərələyəz, orta Araz hövzəsi, Naxçıvan, Zəngəzur bölgələrilə sıx tarixi-coğrafi bağlılığı haqqında az danışılmayıb. Xüsusən qorqudşünaslardan Ş.Cəmşidov, M.Təhmasib, S.Əliyarov, sonralar coğrafiyaşünas S.Babayev və bu sətirlərin müəllifi əsərlərində bu barədə fikirlər söyləyiblər.

*Eposda Şərur, Dərəşam, Dərəşam suyu, Əlincə qalası, Qara dərə, Köksü gözəl, Qazangöl, Qazangöl dağı və başqa tarixi-coğrafi obyektlərin olduğu göstərilir. Köksü gözəl Zəngəzur silsiləsindəki Salvartı dağında və Qırxlar dağı yaxınlığında səfalı bir yaylaqdır. Zəngəzur dağ silsiləsinin bu səfalı guşələri də “Kitabi-Dədə Qorqud” boylarında əksini tapmışdır.*

Türkiyədəki Ağrı dağı eposda “Arqubeli”, orta Araz ovası “Sürməli eli” şəklində xatırlanır. XIX yüzillikdə Sürməli mahalı adlanan bu bölgə İrəvan xanlığının cənub qurtaracağında Araz çayının sağ sahili boyunca uzanırdı. Həmin vaxt bu mahal şimal və şimal-şərq və şərqdən Araz çayı, cənubdan onu Bəyazid paşalığından ayıran Ağrıdağ silsiləsi və Maku xanlığı ilə, qərbdən isə Dərəkənd-Parçeniş mahalı ilə həmsərhəd idi. Sürməli mahalının ərazisi İğdır vilayətinin ərazisinə uyğun gəlir.

Oğuzlar Göyçə gölü və Qərbi Arpaçay arasındakı dağları “Alagöz” yaylaqları adlandırırdılar. Ərdəbil şəhəri yaxınlığındakı Savalan dağının adını da oğuzlar vermişdir.



Qərbi Azərbaycanın Göyçə, Şirak yaylaları, Sürməli, Zəngəzur, Dərəşam, Əlincə qalası ərazisi eposun “Uşun Qoca oğlu Səgrək boyu”ndakı hadisələrin əsas məkanıdır. Adıçəkilən boya görə, Uşun Qocanın “Əgrək” adlı oğlu Qazan xanın iznilə 300 nəfərlik dəstə ilə Şirokuz kənarından Göyçə dənizədək yürüşə çıxdı. Əkrək Əlincə qalasına və onun yanındakı qoruğa düşdükdən sonra Qara təkurun altı yüz nəfərlik dəstəsi hücüm edib onları qırdı və Əkrəyi Əlincə qalasında dustaq etdi. Əkrəyin qardaşı Səkrək izin alıb qardaşını əsirlikdən qurtarmaq üçün yola çıxdı.

Beləliklə, “Uşun Qoca oğlu Səgrək boyu”na görə, Səgrək Göyçə dəniz ətrafından çıxaraq Şirak yaylası, Ağrı və Ala dağların ətəklərindən keçərək Dərəşam məntəqəsində Araz çayını keçib Əlincə qalasına çatır və qardaşı Əgrəyi dustaqlıqdan azad edir. Adıçəkilən boyda tarixlə səsləşən məqamlar çoxdur. Bunlardan birincisi Səgrəyin səfərə başladığı Göyçədən Əlincə qalasına qədər adları çəkilən yerlər, göl, çay, dağ və yaşayış məntəqələri Oğuz elinə aiddir. Onuncu boydakı Uşun Qoca da tarixi şəxsiyyətdir. O, Uşun tayfasındandır. Uşun miladdan önceki yüzilliklərdə yaşamış “Uşun”, yaxud “Usun” adlı türk etnosunun adıdır. Digər tərəfdən, boyda Əlincə qalasında oğuz türklərinin “kafir” adlandırdığı “qaradonlular” kimlərdir?

Qeyd edək ki, Dədə Qorqud Məhəmməd Peyğəmbərlə görüşdükdən sonra oğuzlar İslam dinini qəbul etmişlər. Əlincə qalası ilə bağlı boyda əks olunmuş hadisə Məhəmməd Peyğəmbərdən sonrakı dövrlə səsləşir. Tarixi məlumata görə, Ağqoyunlu dövlətinin banisi Qara Yülük Osman bəyin nəsil şəcərəsinin 14-cü babası Şəktur xan ərəb xəlifəsi Məmunun müasiri və Əlincə qalasını öz tabeliyinə almışdır. Bundan başqa, Əlincə qalası xəlifə Harun ər-Rəşidin müasiri olmuş Oğuzun nəsil şəcərəsinə daxil olan Qıpçaq xanın da tabeliyində olmuşdur. Bu məlumatlar göstərir ki, Harun ər-Rəşidin müasiri olmuş Qıpçaq xan Əlincə qalasını aldıqdan sonra bu bölgə xristian qıpçaqların əlində idi. Beləliklə, Əlincə qalası Qıpçaq xanın tabeliyində, təxminən, Harun ər-Rəşidin hakimiyyətdə olduğu 786-809-cu illər arasında, xəlifə Məmunun müasiri Şəktur xanın öhdəsində isə 833-cü ildən sonra olmuşdur. Deməli, Əgrəyin Əlincə qalasında dustaq olduğu və qardaşı Səgrək tərəfindən azad edildiyi, təxminən, VII əsrin sonlarına, yaxud VIII əsrin 30-cu illərindən sonraya təsadüf edir. Boyda “kafir” adlandırılanlar o vaxt İslamı hələ qəbul etməmiş qıpçaq türkləridir. Aydın olur ki, Səgrək Əlincə qalasına gələrkən qala İslamı qəbul etməmiş xristian qıpçaqların tabeliyində idi.

*Beləliklə, “Kitabi-Dədə Qorqud” boyları ilə bağlı hadisə, əhvalat və məlumatların araşdırılması göstərir ki, Qərbi Azərbaycan bölgəsi eposun ədəbi-mədəni, tarixi-coğrafi mühitində əsas yer tutur. Bu onu da göstərir ki, indiki Ermənistanın yerləşdiyi Qərbi Azərbaycan torpaqları Azərbaycanın əzəli, tarixi ərazisi, Qafqazda fəaliyyət göstərmiş qədim oğuz-türk yurdunun tərkib hissəsidir.*

**Yusif SƏFƏROV**
***Naxçıvan Müəllimlər İnstitutunun professoru, filologiya elmləri doktoru***

# Müstəqil və qalib Azərbaycanımızın gələcəyi sağlam gəncliyə əmanətdir



*Hər bir ölkənin perspektiv inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi gənc kadrların hazırlanmasından, onların intellektual inkişafından və cəmiyyətin aparıcı üzvlərinə çevrilməsindən asılıdır.*

Azərbaycanda dövlət gənclər siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Dahi şəxsiyyət siyasi fəaliyyətinin bütün dövrlərində gənclərimizə xüsusi qayğı göstərərək onların yüksək təhsilə malik olması, milli kadr kimi formalaşması istiqamətində əməli addımlar atıb. Ümummilli Lider Heydər Əliyevin 1999-cu ildə imzaladığı "Dövlət gənclər siyasəti haqqında" müvafiq Fərman gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, gənclərin hüquqlarının müdafiəsi, onların respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakının təmin olunması ilə bağlı məsələlərin geniş spektrini əhatə edir. Sözügedən Fərmana uyğun olaraq ölkəmizdə "Gənclər siyasəti haqqında" ayrıca qanun qəbul edilib. Ulu Öndər Azərbaycan gəncliyinə müraciətlə demişdir: ***"Siz Azərbaycanın bu günü və gələcəyisiniz, sizin üzərinizə böyük vəzifələr düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, inkişaf etdirənlərisiniz, biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycan torpağını yaşatmaq, inkişaf etdirmək üçün hazır olun".***

Dahi şəxsiyyətin ölkə gənclərinə xitabən dediyi bu fikirlər onlara verdiyi yüksək dəyəri, etimadı göstərməklə yanaşı, ölkənin gələcək inkişaf pespektivində gənclərin üzərinə düşən ali missiyanın anonsu idi.

Dövlət gənclər siyasəti bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, bugünkü Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir, yüksək intellekti toplum kimi yetişir, beynəlxalq miqyaslı yarış və tədbirlərdə ölkəmizi layiqincə təmsil edir. Dövlət başçısının gənclər siyasəti ilə bağlı müxtəlif illərdə imzaladığı fərman və sərəncamlar ölkəmizdə aparılan gənclər siyasətinə yeni impuls verib. 2005-2009-cu, 2011-2015-ci, eləcə də 2017-2021-ci illəri əhatə edən üç Dövlət Proqramı uğurla reallaşdırılıb. Hazırda "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"na uyğun olaraq müxtəlif layihələr həyata keçirilməkdədir. Qəbul edilmiş Dövlət proqramları, qanunlar, fərman və sərəncamların hər birinin ana hədəfi Azərbaycan gəncliyinin, bütövlükdə, ölkəmizin inkişaf etdirilməsidir. Ulu Öndərin uzaqgörən siyasi kursunda gənclərin əsl vətənpərvər kimi yetişdirilməsində müstəsna yerlərdən birini tuturdu. Həmin siyasi kursun davamçısı kimi Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin fəaliyyəti dövründə də milli dəyərlərə sadiqlik, vətənpərvərlik ruhunda böyüyən gənc nəsil tarix yazaraq 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızı azad etdi. Prezident cənab İlham Əliyev Gənclər Günü ilə bağlı builki təbrik müraciətində də bu məsələyə xüsusi toxunaraq demişdir: ***"Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, eyni zamanda onda dərin vətənpərvərlik ruhu formalaşdırmışdır. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş və 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazmışdır".***






İndi qalib Azərbaycan gənci "Böyük Qayıdış" proqramının icrası ilə daha bir milli prioritetin gerçəkləşməsində önəmli vəzifələr icra etməkdədir. Gənclərimiz öz lideri Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazimizdə yenidən inşa olunan Azərbaycan torpaqlarında yaşayıb, yaradır, gələcək nəsillər üçün xoşbəxt həyat şəraiti qurmağa çalışırlar.

Gənclər və idman siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir, Dövlət proqramlarının icrası təmin edilir. Nümunəvi və vətənpərvər gəncliyin formalaşması, gənclərin istedad və intellekt potensiallarının inkişaf etdirilməsi, idmanın kütləviliyinə nail olunması, bədən tərbiyəsi və idmanın geniş coğrafi məkanda təbliği, yüksək nailiyyətlər qazanmaq və dünya şöhrətli idmançılar hazırlamaq muxtar respublikada gənclər və idman siyasətinin prioritet istiqamətləri kimi diqqət mərkəzində saxlanılır. Gənclərin şəxsi inkişafına nail olmaq məqsədilə mütəmadi olaraq şəhər və rayonlarda şəxsi inkişaf və yeni karyera imkanları yaradan müxtəlif layihələr, motivasiya yönümlü təlimlər keçirilir, yaradıcı gənclərin aşkar edilməsi və onlara dəstək məqsədilə kurslar, müsabiqələr təşkil olunur. Könüllülük hərəkatının genişlənməsi istiqamətində addımlar atılır. Əlamətdar tarixi günlər, o cümlədən Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə bağlı hər il silsilə tədbirlər keçirilir. Həyata keçirilən layihələrə tələbələrin cəlbi, onların könüllülük proqramına qəbulu, ideyalarının dəstəklənməsinə xüsusi önəm verilir. Tələbələrimiz dəfələrlə ölkə üzrə müxtəlif qrant müsabiqələrinin, yarışmaların qalibi və ya mükafatçısı olub. Son vaxtlara nəzər salsaq, "2023 Enactus Azərbaycan" milli yarışının qalibi kimi Naxçıvan Dövlət Universitetinin tələbələrinin oktyabr ayında Niderlandın Utrext şəhərində keçirilən dünya ENACTUS çempionatında Azərbaycanı uğurla təmsil etməsini qeyd edə bilərik.





Muxtar respublika əhalisinin, təxminən, 22 faizini gənclər təşkil edir. Bu da regionun gələcək sosial-iqtisadi inkişafı üçün yüksək potensial vəd edən güclü insan kapitalının mövcudluğundan xəbər verir. Bu kontekstdə gənclərin müasir texnologiya və iqtisadi biliklərə yiyələnməsi, modern peşə sahiblərinə çevrilməsi və yerli mütəxəssis kimi formalaşması yönündə görüləcək işlər yeni karyera istiqamətləri baxımından əsas prioritetlərdəndir.

İnsan kapitalının inkişafına "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda geniş yer verilib. Peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi, o cümlədən əmək bazarının tələblərinə uyğun yeni ixtisasların tədrisi, xidmət, turizm, informasiya texnologiyaları və digər istiqamətlərdə təlimlərin təşkili həyata keçiriləcək, Gənclərin İnkişaf və Karyera Mərkəzi yaradılacaqdır. Ümumilikdə, məşğulluq imkanlarının artması, infrastruktur təminatının inkişafı, təhsil sistemində innovativ tədris metodikasının tətbiqi, sosial sektorun və insan kapitalının inkişafı kimi prioritetlər muxtar respublikada əhalinin, xüsusən də gənclərin rifahı, iş və karyera həyatı baxımından böyük əhəmiyyətə malikdir.

İyunun 13-də Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin muxtar respublikanın bir qrup fəal gənci ilə görüşü Naxçıvan gəncliyi üçün böyük stimul oldu. Səlahiyyətli nümayəndə görüşdə çıxış edərək 2022-ci ilin dekabr ayından Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəlik institutunun formalaşdırılmasını Naxçıvanın, ümumiyyətlə, Azərbaycan Respublikasının həyatında yenilik kimi qiymətləndirib. Fuad Nəcəfli Azərbaycan Respublikasında aparılan sosial-iqtisadi islahatlarla bağlı gənclərə ətraflı məlumat verib. Səlahiyyətli nümayəndə çıxışında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə gedən sürətli inkişaf prosesindən, Azərbaycan, ümumilikdə, özünü bütün dünyəvi dəyərlərin mirasçısı kimi göstərməsindən danışaraq gənclərə tövsiyə edib ki, cəmiyyətimizdə hər bir prinsipial mövqeyi olan gənc, fərd bu məsələni diqqətdə saxlamalı, gələcək nəsillərə ötürməlidir. Eyni zamanda vurğulamışdır ki, muxtar respublikanın inkişaf etdirilməsində gənclərin potensialından istifadə edilməlidir. Muxtar respublikada ölkə başçısının gənclər siyasətinin uğurla gerçəkləşdirilməsi, gəncliyə göstərilən etimad və qayğı bu məramı bir daha təsdiqləyir.

Ölkə gəncləri artan dövlət dəstəyi və müasir imkanların müşayiətində gələcəyə doğru böyük inamla irəliləyir, mühüm vəzifələr icra edirlər. Onların güclü lideri, güclü dövləti, müzəffər Ordusu var. Bu əsaslar onların həyat və fəaliyyətlərində, ölkəmizin inkişafındakı səylərində ən önəmli faktor kimi gələcəyə işıq saçır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan şəhərində Beynəlxalq Tolerantlıq Günü qeyd edilib



***Naxçıvan şəhərindəki Heydər Məscidi kompleksində 16 noyabr – Beynəlxalq Tolerantlıq Günü münasibətilə "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda dini tolerantlıq" mövzusunda tədbir keçirilib.***

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Orxan Məhərrəmov, Naxçıvan şəhər Came məscidinin imamı Nəbi Salahov, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin əməkdaşı Zəhra Səfərova çıxış ediblər. Bildirilib ki, bu il anadan olmasının 100 illiyini qeyd etdiyimiz xalqımızın Ümummilli Lideri Heydər Əliyev ölkəmizdə milli-mənəvi dəyərlərimizin, tolerantlığın qorunub inkişaf etdirilməsində misilsiz xidmətlər göstərib. Azərbaycanın dünyəvi və çoxkonfessiyalı ölkə olduğunu nəzərə alaraq hər zaman bu məsələyə yüksək diqqət və qayğı ilə yanaşıb.

Bildirilib ki, bu gün bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Azərbaycan son illər ərzində dünyada tolerantlığın inkişafına mühüm töhfələr verib. Ölkəmizin bu sahədə qazandığı mükəmməl təcrübə artıq dünyanın öyrəndiyi modeldir.

Vurğulanıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu genişmiqyaslı quruculuq fəaliyyəti ilə xalqımızın ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə sonsuz hörmətini ifadə edir. Heydər Əliyev Fondu tərəfindən Azərbaycanın müxtəlif guşələrində və bir çox ölkələrdə dini mənsubiyyətindən asılı olmayaraq, abidələrin bərpa edilməsi Azərbaycan xalqının tolerant və multikultural mahiyyətini əks etdirir.

Tədbirin sonunda bələdçi Fatimə Səfərova tərəfindən Heydər Məscidi kompleksi haqqında ətraflı məlumat verilib. Məsciddə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin ruhuna dualar oxunub.

***Xəbərlər şöbəsi***

## Mənəvi dəyərlərimizin qorunmasında tarixi abidələrin rolundan bəhs edən elmi-praktiki konfrans



*Naxçıvan Müəllimlər İnstitutunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar tədbirlər planına uyğun "Mənəvi dəyərlərimizin qorunmasında tarixi abidələrin rolu" mövzusunda elmi-praktiki konfrans keçirilib.*

Konfransda giriş sözü ilə çıxış edən institutun rektoru Azad Novruzov qeyd edib ki, ulu babalarımızın bizə yadigar qoyduğu tarixi abidələrimiz Azərbaycan xalqının qədim mədəniyyətinin göstəricisidir. Çünki hər bir tarixi abidə məxsus olduğu dövrün mədəni mühitini, təfəkkür və düşüncə tərzini özündə yaşadır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə xalqımızın tarixinin öyrənilməsi, tarixi və mədəni irsinin qorunub saxlanılması sahəsində mühüm işlər görülmüş, bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaradılmışdır.

Sonra AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya Arxeologiya İnstitutunun icraçı direktoru Vəli Baxşəliyev çıxış edərək bildirib ki, abidələr və tarixi yerlərimiz öz görkəmləri ilə xalqımızın zəngin tarixini bir daha əyani nümayiş etdirir. Ölkəmizdə tarixi abidələrin bərpası və qorunmasına xüsusi diqqət göstərmiş, bu işlərə dövlət dəstəyini əsirgəməmiş Ümummilli Lider Heydər Əliyevin qoyduğu ənənəni bu gün Prezident cənab İlham Əliyev, Azərbaycan Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ölkə daxilində və xaricində böyük işlər həyata keçirməklə davam etdirirlər. Son illər ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində bir sıra layihələr icra olunub. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. Bakı, Naxçıvan, Şəki, Şamaxı, Quba, Qəbələ, Gəncə, Bərdə, bir sözlə, Azərbaycanın hər bir zonasında olan tarixi binalar, qalalar, dini məbədlər və digər mədəni irs nümunələrimizin bərpası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Sonda İncəsənət kafedrasının təşkil etdiyi "Tarixi abidələrimiz rəsmlərdə" adlı sərgiyə baxış olub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

*Yaşadığım binanın həyətində uşaqların özlərinin düzəltdikləri meydançada futbol oynadıqlarını görərkən xəyalım məni özümün də yaşadığım qayğısız uşaqlıq illərinə apardı. Oynadığımız oyunları, qayğısız günlərimi gözlərim önünə gətirdim. Elə sonrakı illərdə də, lap yaxın dövrlərə qədər də həyət-bacada, özlərinə meydança düzəltdikləri yerlərdə uşaqların başlarını qatdıqları oyunlara dünyanın ən böyük sevincini bəxş edən məşğuliyyət idi. Hələ udan tərəfin hay-küyü, onları dəstəkləyən kiçik azarkeşlərin alqışları... Bu gün o oyunlara maraq göstərən uşağa rast gəlirsinizmi? Rast gəlsəniz də, yəqin, etiraf edərsiniz ki, çox az... Bunun səbəbi nədir? Axı hər bir oyun özü idmandır, uşağın sağlamlığına müsbət təsir göstərən vasitədir. Bəzi oyunlar isə onların təfəkkürünün inkişafında mühüm rol oynayır, həmçinin kiçik yaşlarından onlarda kollektivçilik hissi formalaşdırır. Digər müsbət cəhətlər də az deyil.*

# Niyə işıq gələn tərəfə getmək istəmirik?



Bir məsələni də qeyd edək ki, bu gün muxtar respublikada idmanın inkişafı ilə bağlı çox böyük işlər görülür. Belə ki, müxtəlif idman növləri üzrə fəaliyyət göstərən federasiyaların tərkibində uşaq qruplarının da olması hamımızı sevindirir. Yaxşı haldır ki, həmin qruplara cəlb edilmiş uşaqların muxtar respublika və ölkə səviyyəli yarışlarda iştirakı və qələbələr qazanması gələcəyimizə sağlam ruhlu yeniyetmələrin inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Bu məqamda onu da vurğulamaq gərəkdir ki, bəzi ucqar kənd yaşayış məntəqələrinin məktəbyaşlı uşaqları belə imkanlardan məhrumdurlar axı...

Onu da etiraf edək ki, bu gün bəzi orta məktəblərimizdə idman dərslərinə çox hallarda barmaqarası münasibəti də görürük. Həmin tədris ocaqlarında bu dərslərə qeyri-əsas fənn kimi baxılır.

Bu məsələdə bəzi valideynlər də ictimai qınaqdan kənarda qalıblar. Yəni özümüz də həyət-bacada şahidi oluruq ki, valideynlər uşaqlarını öz sevimli oyunlarından ayırıb dərslərini oxumağa məcbur edirlər. Unudurlar ki, oxumağın öz vaxtı, uşaq üçün oynamağın da öz vaxtı var. Yəqin, düşünmürlər ki, sağlam ruh sağlam bədəndə olar. Təbii ki, sağlam bədənə sahib olmaq üçün başlıca vasitə idmandır...

Bu yaxınlarda bir həmkarımın bir neçə məsələ ilə bağlı maraqlı bir yazısı məni düşündürən bəzi məqamlara toxunmağa vadar etdi. Bu məqamları oxucularla bölüşmək istədim: Unudulan təkcə uşaq oyunlarıdırmı? Tam əminliklə deyim ki, bu gün hansı oxucumuza belə bir sualla: – Son vaxtlar qohum-əqrəbanızda, yaxın tanışlarınızda hansı nənəninsə öz nəvələrinə nağıl danışmasını xatırlayırsınızmı? – deyə, müraciət etsək, müsbət cavab almayacağıq. Şəxsən mən özüm nənələrin uşaqlara nağıl danışması kimi çox maraqlı, tərbiyəvi əhəmiyyət daşıyan prosesin mövcudluğunu yadımdan çıxarmışam. Bəli, unudulan dəyərlər içərisində nağıllarımız da var. Və etiraf edək ki, bu qiymətli ədəbi nümunələri, şifahi xalq ədəbiyyatının ən geniş yayılmış janrlarından biri olan nağılları ilk olaraq nənələrimizdən eşitmişik. Özümüzü o nağılların içində görmüşük. Mənfi surətlərə nifrət etmişik, müsbət surətlərə oxşamağa çalışmışıq. Bəzən nənələrimizin: – Daha gecdir, gedin yatın, qalanını sabah danışaram, – deməsindən sonra onlardan əl çəkməmişik ki, nağılı başa çatdırsınlar. Burada yadıma gözəl şairimiz Əhməd Cəmilin kövrək misraları düşür:

*– Ay nənə, bir nağıl da de!*
*– Ömrüm-günüm, yat daha,*
*Hamısını indi desəm, nağıl qalmaz sabaha.*
*– Can nənə, de birini də.*
*– Ağrın alım, sözə bax.*
*Evimizdə səndən savay, gör heç varmı bir oyaq?*

Nağıl hər bir xalqın təfəkkürünün məhsulu olmaqla uşaqlarda ilkin müsbət keyfiyyətlər formalaşdırır. Cəsurluq, qorxmazlıq, vətənpərvərlik, böyüklərə hörmət, kiçiklərə qayğı və sair. Həmçinin uşaqlarda nitq qabiliyyətinin inkişaf etdirilməsində, onlarda söz ehtiyatının zənginləşdirilməsində və digər bu kimi keyfiyyətlərin aşılanmasında nağıllar ən səmərəli vasitələrdən biridir. Elə ulularımız da məhz bunları nəzərə alaraq uşaqlara nağıl danışmağı vacib sayıblar. Bəs bu gün bu, niyə unudulub? Yəqin, deyəcəksiniz ki, indi nağıl yox, kompüter əsridir. Bu fikirlə razılaşmaq olar ki, indi kompüter əsridir. Ancaq onu da unutmayaq ki, televizor, internet, kompüter və həyatımızın tərkib hissəsinə çevrilən digər texnologiyalar barədə ilk ibtidai məlumatlar başqa məfhumların timsalında elə nağıllarımızda verilməyibmi? Ata-babalarımız öz ilkin təfəkkür tərzləri ilə həmin texnologiyaları ibtidai şəkildə olsa da, nağıllarımıza gətirməyiblərmi? Məsələn, uçan xalçalar, məktub daşıyan göyərçinlər və sair.

Yaxşı ki, nağıllar orta məktəbdə ibtidai siniflərin proqramına salınıb. Sinifdənxaric oxu materiallarında da nağıllara yer verilib. Bu vasitələrdən səmərəli istifadə etmək müəllimlərin vəzifəsidir və düşünürük ki, onlar bu vəzifəni yerinə yetirməyə səy göstərsələr də, azdır.

Son illərdə ölkə Prezidentinin müvafiq Sərəncamı ilə latın qrafikası ilə nəşr olunmuş çox qiymətli kitablar məktəb kitabxanalarına da verilib. Onlardan necə istifadə olunur? – sualına isə birmənalı cavab vermək mümkün deyil. Bunu xidməti işimlə əlaqədar olduğum bir neçə məktəbdə görmüşəm. Bu gün də elə olduğuna şübhəm yoxdur. Həmin təhsil müəssisələrində çalışanlar öz vəzifə borclarına məsuliyyətlə yanaşsalar, uşaqlarda mütaliə mədəniyyətinin formalaşmasını da təmin edə bilərlər. Təəssüf ki...

Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin tərbiyə işləri üzrə direktor müavini ***Günay İsaqova*** deyir ki, bir dəfə mərkəzə qəbul olunmağa gəlmiş bir neçə uşaqla həmsöhbət olaraq soruşdum:

– İlk dəfə hansı nağılı eşitmisiniz?

Əvvəlcə heç bir şagird dillənmədi. Bir qədər istiqamət verdikdən sonra şagirdlərdən biri cavab verdi:

– Televiziyada "Göyçək Fatma" nağılına baxmışam.

Bu cavab başqa şagirdləri də sanki ruhlandırdı. Onlar televizorda, internetdə baxdıqları müxtəlif filmlərdən (baxmayaraq ki, onların böyük əksəriyyəti nağıl janrından xeyli uzaq olan ekran materialları idi) danışmağa başladılar. Belə bir haqlı qənaətlə, yəqin ki, çoxumuz razılaşmayacağıq: bəhs olunan mövzu ilə bağlı bu gün nənələri televizor və internet əvəz edib. Ancaq biz də bir mərkəz olaraq nağıllarımızın, uşaq oyunlarımızın unudulmaması üçün öhdəmizə düşən vəzifələri yerinə yetirməyə səy göstəririk. Mərkəzin Kütləvi tədbirlər şöbəsinin nəzdində "Naxçıvan folkloru" dərnəyi fəaliyyət göstərir. Bu dərnəkdə yaradılmış bir neçə qrupa çoxlu uşaq cəlb olunub. Dərnəklərin məşğələlərində nağıllar oxunur, onların düzgün qiraəti diqqət mərkəzində saxlanılır, bəzi nağılları səhnələşdiririk. Vətənpərvərlik, xeyirxahlıq hisslərinin, digər müsbət keyfiyyətlərin düzgün formalaşdırılmasında belə tədbirlərin böyük əhəmiyyəti var. Bu məsələnin həllində məktəb kitabxanalarının da üzərinə mühüm vəzifələr düşür.

Bu gün paytaxt şəhərimizdə fəaliyyət göstərən Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla, həmçinin Uşaq teatrlarının bu vəzifənin öhdəsindən gəlməsi təqdirolunasıdır. Bu mədəniyyət müəssisələri nağıllar əsasında səhnələşdirilmiş tamaşalara daha çox yer verməyə çalışırlar. Onları uşaqlara təqdim edəndə yaşadıqları sevinci təsəvvür edirsinizmi? Ancaq... Bir dəfə nəvəmi apardığım tamaşadan sonra uşaqlarla həmsöhbət oldum. Nağıl-tamaşadan xoşları gəlib-gəlmədiyini soruşdum. Cavabları çox müsbət oldu. Soruşdum ki, evinizdə sizə nağıl danışırlarmı? "Yox" cavabı aldım: – Ata-anamız seriallara baxır, bizi isə dərslərimizi oxuduqdan sonra yatmağa göndərirlər.

Acı da olsa, həqiqətdir. Kimlər üçünsə toxunduğumuz mövzu köhnəlmiş, ya da lazımsız hesab edilə bilər. Ancaq dərindən düşünsək, nağıl aləminin gerçəkliklərini uşaqlarımıza çatdırmağın böyük tərbiyəvi əhəmiyyəti olduğunu anlayarıq. "Cırtdanın nağılı"nı xatırlayırsınızmı? Nağılda belə bir məqam var. Uşaqlar meşədə azıblar. Yol axtarırlar. Qarşıda iki yol var: bir tərəfdə işıq görünür, bir tərəfdən səs gəlir. Cırtdandan soruşurlar: – Hansı tərəfə gedək: işıq görünən tərəfə, yoxsa səs gələn tərəfə? – Cırtdan cavab verir: – İşıq gələn tərəfə.

Elə bu nağılın özünün aşıladığı mənəvi dəyər yetərincə deyilmi?

*...Nağıllarımızda işıq var, keçilən yolun sonu həmişə xeyirlə qurtarır. Xeyir həmişə şər üzərində qələbə çalır. Bu qələbə həmin işıqdan gəlir. İşıq gələn tərəfə gedək.*

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına xidmət edən kitab




*AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Cəfərovanın Qərbi Azərbaycanla bağlı yeni kitabı işıq üzü görüb. "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" adlanan kitabı müəllif Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf edib.*

Kitab nəfis tərtibatda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görüb. Nəşrin elmi redaktoru və ön sözün müəllifi Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli, rəyçiləri isə filologiya elmləri doktorları, professorlar Məhirə Hüseynova və İbrahim Bayramov, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayıldır.

Kitabın əvvəlində Ümummilli Lider Heydər Əliyevin və Prezident cənab İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsasını ehtiva edən fikirləri yer alıb.

Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli kitaba yazdığı "Qərbi Azərbaycana qayıdış ideyası bədiilikdən həqiqətə" başlıqlı ön sözdə Azərbaycanın qədim tarixə malik Qərb bölgəsinin məkrli siyasət nəticəsində qoparılması, ermənilərin xalqın və milli yaddaşın məhvinə yönəlik siyasəti, buna rəğmən xalqımızın sahib olduğu milli dəyərlər sistemini qoruyub yaşatması məsələsinə toxunur. Yeni kitabın aktuallığını qeyd edən alim əsəri Qərbi Azərbaycana qayıdış uğrunda ümumxalq mübarizəsinin tərkib hissəsi adlandırır.

Kitab 3 bölmədən ibarətdir. "Xalq yaradıcılığında və xatirələrdə yaşayan etno-milli tarix" adlanan birinci bölmədə müəllif Qərbi Azərbaycan folkloruna ümumi nəzər salır, ermənilərin ötən əsrin əvvəllərindən başlayaraq xalq mahnılarımızı mənimsəməsi, ənənəvi erməni oğurluğu və Zəngəzur bayatılarında yaşadılan milli-etnik tarixi yaddaş məsələsinə diqqət çəkir.

Aytən Cəfərova həm də Qərbi Azərbaycan İcmasının Ordubad rayonu üzrə nümayəndəsidir. Tədqiqatçı səmərəli fəaliyyəti çərçivəsində müntəzəm olaraq rayon ərazisində məskunlaşmış qərbi azərbaycanlılarla görüşlər keçirir, apardığı söhbətlər əsnasında aktuallıq kəsb edən materialları və xalq yaddaşında qorunan folklor nümunələrini qeydə alır. Həmin görüşlərdə toplanan materialların, eləcə də böyük mənəvi önəmə sahib mədəniyyət nümunələrinin kitaba daxil edilən fotoşəkilləri əsərə rəng qatır.

Əsərin ikinci bölməsi "Şifahi yaradıcılıqda tarixi yaddaş" adlanır. Burada Qərbi Azərbaycan folkloruna xas inanclar, sınamalar, ocaq və pirlərlə bağlı andlar, mərasimlər, adət-ənənələr, bayatı və haxıştalar oxucuların ixtiyarına verilib.

"Sazlı-sözlü Gomurdan seçilənlər" adlı sonuncu bölmədə isə Naxçıvanda məskunlaşmış Qərbi Azərbaycandan olan saz-söz adamlarının poetik yaradıcılığından nümunələr təqdim olunur.

Qeyd edək ki, "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" kitabı muxtar respublikada Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına xidmət edən ilk kitabdır.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Uşaq kitabxanasında tədbir keçirilib



"Uşaq hüquqları aylığı" çərçivəsində Adil Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanasında "Xoşbəxt uşaqlar xoşbəxt gələcək deməkdir" mövzusunda tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) və kitabxananın əməkdaşları, müəllimlər və şagirdlər iştirak edib.

Kitabxananın direktoru Ruzi Süleymanov tədbirin əhəmiyyətindən danışıb.

Tədbirdə Ombudsmanın əməkdaşı Mətin Allahverdiyevin "İnsan hüquqları kontekstində uşaqların hüquqları" və kitabxananın əməkdaşı Tərlan Məsumlunun "20 noyabr Uşaq Hüquqları Günüdür" mövzularında çıxışları dinlənilib.

Sonda şagirdlərin insan hüquqları ilə bağlı səsləndirdiyi şüarlar dinlənilib, videoçarx izlənilib, şagirdləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

# 62 yaşlı pəhləvan Naxçıvanda qatar dartıb



Dünən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə tanınmış Azərbaycan pəhləvanı Əliyar Musayevin pəhləvanlıq proqramı nümayiş olunub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Naxçıvan Dəmiryol Vağzalının dəstəyi ilə keçirilən tədbirdə xalq pəhləvanı ümumi çəkisi 50 tona yaxın 2 qatar vaqonunu çeçələ barmaqları ilə dartmaqla missiyasını uğurla həyata keçirib. Bundan əlavə, pəhləvan müxtəlif güc hərəkətləri ilə çıxış edib.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini Məcid Seyidov gənclərin sağlam həyat tərzinə təşviq baxımından pəhləvanın xidmətlərini yüksək qiymətləndirib, ona təşəkkürünü ifadə edib. Nazir müavini Əliyar Musayevə fəxri fərman və hədiyyə təqdim edib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Babək rayonunun Zeynəddin kəndində yaşamış Məmmədova Münəvvər Mirzəli qızına məxsus JN-310 nömrəli, 10308038 kodlu "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 664